**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# İŞĞALDAN AZAD OLUNMUŞ REGİONLARDA TURİZMİN İNKİŞAFININ SOSİAL-İQTİSADİ PROBLEMLƏRİ

İxtisas: 5312.01 - Sahə iqtisadiyyatı

Elm sahəsi: İqtisad elmləri

İddiaçı: **İsa İbadulla oğlu Muradov**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI- 2025**

Dissertasiya işi Azərbaycan Memarlıq və İnşaat Universitetində "İqtisadi nəzəriyyə və marketinq" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: iqtisad üzrə fəlsəfə doktoru, dosent
**Asəf Mirzə oğlu Ağayev**

Rəsmi opponentlər: iqtisad elmləri doktoru, dosent
**Aqil Məhiyəddin oğlu Əsədov**

iqtisad üzrə fəlsəfə doktoru, dosent
**Camal Cəlil oğlu Hacıyev**

iqtisad üzrə fəlsəfə doktoru
**Ülkər İsgəndər qızı Məmmədova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən ED.1.10 Dissertasiya şurası

Dissertasiya şurasının sədri ____________ iqtisad elmləri doktoru, professor
**Nazim Müzəffərli (İmanov)**

Dissertasiya şurasının katibi ____________ iqtisad üzrə fəlsəfə doktoru
**Sevda Məmməd qızı Seyidova**

Elmi seminarın sədri ____________ iqtisad elmləri doktoru, professor
**Tərbiz Nəsib oğlu Əliyev**

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Turizm sənayesi sürətlə inkişaf edən və dinamikliyinə görə fərqlənən xidmət sahələrindən olmaqla, yerli icmaların məşğulluğunun təmin olunmasında, əlavə dəyər yaradılmasında mühüm rola malikdir. Müasir dünyada və qlobal iqtisadi sistemdə turizm hər bir ölkə üçün iqtisadiyyatın ən dinamik inkişaf edən və gəlirli sahələrindən biridir.

Dünya Səyahət və Turizm Şurasının (WTTC) pandemiyadan əvvəlki son hesabatına görə, səyahət və turizm sektorunda qlobal miqyasda 10,4% ÜDM olmaqla 319 milyon iş yeri yaradıb və dünya iqtisadiyyatında 0.7% artım təmin edilib[1]. Turizmin iqtisadiyyatda rolu iqtisadi siyasətdə və ölkənin beynəlxalq əlaqələrində öz xüsusi çəkisi ilə müəyyənləşir. Turizmin gəlirləri dövlət gəlirlərinin, əhali və sahibkarların gəlirlərinin tərkib hissəsidir. Bu səbəblərdən də ölkədəki turizm onun iqtisadi və sosial potensialının inkişafına və idarə olunmasına təsir edir. Ölkədə turizmin inkişafı və iqtisadiyyatdakı payını artırmaq məqsədilə dövlət tərəfindən müxtəlif siyasət və proqramlar həyata keçirilir. Ölkədə turizm sektorunun inkişafında iki dövlət proqramı (2002-2005 və 2011-2014), strateji yol xəritəsi (2016), 2023-2026-cı illəri əhatə edən turizm strategiyası və işğaldan azad olunmuş ərazilərdə TRZ yaradılması istiqamətlərin qeyd etmək olar. Bununla yanaşı, Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" haqqında sərəncamında regionda iqtisadiyyatın tarazlı inkişafı, kiçik və orta sahibkarlı subyektlərinin dəstəklənməsi, digər təsərrüfat sahələri ilə paralel turizm infrastrukturunun bərpası, mövcud potensialdan səmərəli istifadə etməklə rəqabətə davamlı turizm destinasiyalarının inkişafı dəstəklənir.

Onu da qeyd edək ki, postpandemiya dövründə turizm sektorunun bərpası dayanıqlı xarakter almış, gəlmə turizmin payı 2023-cü ildə 2,1 mln nəfər, ÜDM-də payı 2,5% -ə çatmışdır. Bu artım

---

[1] WTTC cities economic impact 2022: [Electronic resource] / URL: https://wttc.org/Portals/0/Documents/Reports/2023/WTTC-Cities-Economic-Impact-Final.pdf

ölkədə turizmin pandemiyaya qədər 2019-cu il göstəricilərinin gəlmə turizm üzrə 80,9%, ÜDM üzrə 80% təşkil etmişdir[2].

Tədqiqat regionunda 687 qeydə alınmış, bir neçə yüz qeydə alınmamış arxeoloji və memarlıq abidələrinə rast gəlinir. Bölgədə mədəni irs abidələri bütün ərazilər də yayılsa da, onların daha çox cəmləndiyi destinasiyalara Şuşa şəhəri, Tuğ-Azıx-Tağlar yaşayış məntəqələri, Kəlbəcər rayonun Zülfüqarlı və Vəng kəndləri, Ağdamda Şahbulaq qalası və ətrafında olan arxeoloji abidələri qeyd etmək olar. Onu da qeyd edək ki, regionda tarixi mədəni irsin resurslarının çox kriteriyalı qiymətləndirilməsinə görə Şuşa, Xocavənd, Ağdam, Ağdərə rayonları yüksək, Laçın, Kəlbəcər rayonları orta, Füzuli, Cəbrayıl, Zəngilan rayonları nisbətən orta göstəriciyə malikdir[3].

Bölgənin zəngin turizm potensialının təbii irsə aid olan ekzotik landşaftı, təbiət abidələri, çayları, gölləri, eko-sağlamlıq irsinə daxil edilən zəngin mineral və termal suları, fitobitkiləri, oksigenlə zəngin saf havası, mədəni, tarixi-dini, etno-mədəni irsinə beynəlxalq ölkə əhəmiyyətli tarixi-memarlıq, arxeoloji, dini abidələr və onların bir çox yaşayış məntəqələrində yığcam yerləşməsi, icmaların etno ənənələri, qonaqpərvərlik və qurman turizm imkanları bir çox turizm növlərinin inkişafını şərtləndirmiş olur.

İşğaldan azad olunmuş ərazilərdə turizmin inkişafını şərtləndirən amillərdən biri də beynəlxalq təcrübənin öyrənilməsi və yerli amilləri nəzərə almaqla ondan bəhrələnməkdən ibarətdir. Bu baxımdan tədqiqat ərazisində beynəlxalq analoqların təhlili nəticəsində “boz” zonalar və ən yaxşı təcrübələr kimi tətbiqlərin öyrənilməsinə üstünlük verilmişdir. Ən yaxşı təcrübələrinin tətbiqdə mövcud potensialdan səmərəli istifadə etməklə davamlı turizmin inkişafına nail olunması, mədəni, eko-mədəni, etno-mədəni, aqro-eko, eko-sağlamlıq, istirahət, tədbir, kreativ sənayeyə əsaslanan turizm, açıq hava turizm fəaliyyətlərinin formalaşdırılması, həmçinin regionun ölkə iqtisadiyyatına reinteqrasiya üçün əlavə dəyərin

---

[2] Azərbaycan Dövlət Statistika Komitəsi. Azərbaycanda turizm statistik məcmuə. – Bakı, - 2023, - 101 s.

[3] Azərbaycan Respublikası ərazisində dövlət mühafizəsinə götürülmüş daşınmaz tarix və mədəniyyət abidələrinin əhəmiyyət dərəcələrinə görə bölgüsünün təsdiq edilməsi haqqında: [Elektron resurs] / 02 avqust, 2001. URL: https://e-qanun.az/framework/2847

yaradılması mümkündür. Ən yaxşı təcrübələrin öyrənilməsində mədəni və təbii irsin birgə istifadə edilməsində maraqlı tərəflərin analizi, turizm klasterlərinin formalaşdırılmasının səmərəliliyinin əsaslandırılması, gələcək məskunlaşmada turizm potensialından istifadənin prioritet olması tədqiqat işinin aktuallığını şərtləndirir.

Turizmin iqtisadiyyatının müxtəlif sahələri və digər elmlərlə qarşılıqlı əlaqədə inkişaf etdiyinə görə bir çox tədqiqatçıların elmi araşdırmalarında öz əksini tapmışdır. Turizmin iqtisadiyyatı və regionlarda turizmin inkişafı sahəsində N.İmanov, Ə.Nuriyev, Ə.Əlirzayev, T.Əliyev, T.Hüseynov, A.Əsədov, A.Səfərov, R.Sultanova, R.Abdullayeva, M.Məmmədov, E.Məmmədov, V.Qasımlı, F.Rəhmanov, turizm-rekreasiya potensialının öyrənilməsində A.Salmanov, H.Soltanova, A.Əzizov, V.Dərgahov, Z.İmrani, A.Həsənov, C.Hacıyev, Ü.Məmmədova və s. elmi tədqiqat işlərində geniş araşdırılır.

Regionlarda turizmin iqtisadiyyatı və ərazi təşkilinin öyrənilməsində MDB məkanında olan tədqiqatçılarda A.Aleksandrova, M.Birjakov, A.Drozdov, Y.Yefremenko, M.Morozov, D.Uşakov, İ.Draqilyeva, Y.Çernyavskiy, A.Çudnovskiy və s. araşdırmışdır. Regionlarda turizmin inkişafı xarici tədqiqatçılarından: R.Martin, A.Liu, A.Jabbari, E. Freeman, F.Kotler, J.Baidal, F.Oliver, D.Sanford, C.Tosun, D.Timothy, T.Toivonen, Y.Klein, S.Khalil, N.Kadir, J.Kelly, G.Kandela, Y.Öztür, H.Kim, O.Bahar, E.Beceren, J.Baidal, O.İçöz, M.Kozak, M.Sarıkaya və s. önəmli tədqiqat işlərini qeyd etmək olar. Lakin həmin tədqiqatların nəticələrini yüksək qiymətləndirərək onu da qeyd etmək vacibdir ki, işğaldan azad olunmuş ərazilərin turizm potensialının qiymətləndirilməsi və gələcəkdə dayanıqlı turizmin inkişaf istiqamətlərinin müəyyənləşdilməsi bir tədqiqat obyekti olmamış və dissertasiya işində ilk dəfə olaraq tədqiq olunur.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini işğaldan azad olunmuş ərazilərin turizm potensialı təşkil edir. Predmeti isə işğaldan azad olunmuş ərazilərin turizm potensialının müxtəlif təhlil metodlarından istifadə etməklə qiymətləndirilməsi, sosial-iqtisadi problemlərin müəyyən edilməsi "Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası çərçivəsində məşğulluq probleminin həlli

ilə yanaşı, gələcəkdə formalaşacaq rəqabət qabiliyyətli TRZ-lər və turizm klasterlərinin müqayisəli üstünlüklərinin, regionun ölkə iqtisadiyyatına reinteqrasiyasının təmin edilməsindən ibarətdir.

**Tədqiqatın məqsədi və vəzifələri.** Dissertasiya işinin məqsədi Azərbaycanın işğaldan azad olunmuş ərazilərində turizm potensialının qiymətləndirilməsi, müvafiq ehtiyat imkanlarının aşkara çıxarılması və regionda sosial-iqtisadi inkişafa hədəflənən səmərəli elmi cəhətdən əsaslandırılmış təklif və tövsiyələrin işlənilməsindən ibarətdir. Qarşıya qoyulmuş məqsədin həyata keçirmək üçün aşağıdakı vəzifələr müəyyən edilmişdir:

-Turizmin inkişafının sosial-iqtisadi aspektləri, konseptual modelləri və təşkilinin innovativ metodlarının müəyyənləşdirilməsi;

-Beynəlxalq turizm bazarının inkişaf istiqamətləri və rəqabət mühitinin qiymətləndirilməsi;

-Azərbaycanda turizm sənayesinin müasir vəziyyəti, mikro və makroiqtisadi təsirləri;

-İşğaldan azad olunmuş ərazilərdə turizm potensialının qiymətləndirilməsi və sosial-iqtisadi inkişafda turizmin rolunun müəyyən edilməsi;

-İşğaldan azad olunmuş ərazilərdə turizmin təşkilinin problemləri və maraqlı tərəflərin müəyyən edilməsi;

-İşğaldan azad olunmuş ərazilərdə beynəlxalq təcrübə nəzərə alınmaqla turizmin təşkili, inkişafı, turizm növləri üzrə klasterlərin yaradılmasına dair təklif və tövsiyələrin işlənilməsi.

**Tədqiqatın metodları.** Tədqiqat işində riyazi statistik, müqayisəli təhlil, empirik tədqiqat (sosioloji sorğu), reytinq, inteqral, klaster, çox kriteriyalı qiymətləndirmə, barcet, linear metodları həmçinin SWOT, PESTLE və maraqlı tərəflərin analizi üzrə tədqiqat metodlarından istifadə edilmişdir.

**Müdafiəyə təqdim edilən əsas müddəalar**

- Azərbaycanda turizm sənayesinin daha çox paytaxt və yaxın ərazilərdə cəmlənməsi tarazlı inkişafın təmin edilməsinə imkan vermir. Buna görə də regionların iqtisadi inkişafında innovasiya və ən yaxşı təcrübələrin tətbiqi əhalinin məşğulluğunun və yerli icmaların iqtisadi fəallığının artırılmasında turizm sənayesinin sistemləşdirilməsinə ehtiyac vardır.

-Turizm sənayesinin ÜDM-də payının 2,5%-dən çox olmaması bu sahəyə dövlətin prioritet istiqamət kimi tətbiqi etdiyi stimullaşdırıcı tədbirlər və yönəldilən investisiya ilə tərs mütənasibdir. Belə ki, Azərbaycanda turizm sənayesinin iqtisadiyyata makro və mikroiqtisadi təsirlərinin artım dinamikası ilə ÜDM və məşğulluq arasındakı əlaqələrin təhlili bu sahədə mövcud dinamikanın zəif olması üzə çıxarılmışdır.

- Regionun təbii və mədəni turizm resurslarının zənginliyi rəqabət qabiliyyətli turizm sənayesinin yaranmasına imkan verir. İşğaldan azad olunmuş ərazilərin cəlbedici turizm potensialının çox kriteriyalı qiymətləndirmə, reytinq, inteqral və klaster yanaşması dövlətin dəstəyi ilə səmərəli istifadəni və rəqabət qabiliyyətli turizm növlərinin formalaşmasını təmin edəcəkdir.

- Regionda turizmin inkişaf impluslarının müəyyən edilməsində maraqlı tərəflərin (stakeholders), PESTLE və SWOT analizinin nəticələri ərazi vahidi daxilində ixtisaslaşmış TRZ-lərin yaradılması, investisiya imkanları və sahibkarlıq subyektlərinin cəlb olunmasını təmin etmiş olacaqdır.

- Beynəlxalq təcrübəyə əsaslanmaqla işğaldan azad olunmuş ərazilərdə ekoturizm, eko-mədəni, etno-mədəni, açıq hava, sağlamlıq, istirahət, işgüzar, aqro- eko turizm klasterlərinin yaradılması innovasiyalı məhsulların formalaşdırılmasına imkan vermiş olacaqdır.

**Tədqiqat işinin elmi yeniliyi**

- Turizmdə "boz" zonaların bərpasında alternativlərin və innovasiyaların tətbiqi əsasında potensialdan səmərəli istifadə istiqamətləri müəyyən edilmişdir [9, s. 540–543].

- Regionda turizmin təşkili və potensialının iqtisadi qiymətləndirilməsi müxtəlif metodologiyalara əsaslanmaqla işlənilmişdir [4, s. 43–47].

- İşğaldan azad olunmuş ərazilərdə çox kriteriyalı qiymətləndirmə əsasında cəlbedici turizm növləri, TRZ-lərin formalaşması və sahibkarlıq subyektlərinin səmərəli təşkili mexanizmi formalaşdırılmışdır [3, s. 72–78].

- İşğaldan azad olunmuş ərazilərdə ekoloji, eko-mədəni, etno-mədəni, eko-sağlamlıq, istirahət, aqro-eko, açıq hava turizm klasterlərinin yaradılmasının məqsədə uyğunluğu əsaslandırılmış və

proqnozu işlənmişdir [1, s. 68–70], [6, s. 704–713].

- İşğaldan azad olunmuş ərazilərin ölkə iqtisadiyyatına reinteqrasiyanın təmin edilməsində təhlükəsizlik və alt infrastrukturun bərpası, təbii və mədəni irs resurslarından turizmdə istifadə imkanları üzrə elmi cəhətdən əsaslandırılmış təklif və tövsiyələr işlənib hazırlanmışdır [10, s. 1974–1977].

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqatın praktik əhəmiyyətinə əldə edilən konseptual müddəalar, nəticə və təkliflərdən işğaldan azad olunmuş ərazilərin iqtisadi inkişafında, Böyük Qayıdış zamanı əhalinin məşğulluğunun təmin edilməsində istifadə edilə bilər. Bununla yanaşı, əldə edilmiş nəticələrdən Dövlət Turizm Agentliyi, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında turizm resurslarının qiymətləndirilməsi və istifadə olunmasında, iqtisadiyyatın inkişafında, əhalinin məşğulluğu, regionda turizm strategiyasına uyğun olaraq turizm destinasiyaları və klasterlərin formalaşmasında, maraqlı tərəflərin cəlb olunmasında istifadə oluna bilər.

**Tədqiqatın aprobasiyası və işin nəticələrinin tətbiqi.** Dissertasiyanın məzmunu nəşr edilmiş 9 məqalə və tezisdə, o cümlədən, biri Web of Science bazasında yerləşən jurnalda öz əksini tapmışdır. Dissertasiya işinin mövzusuna uyğun aparılan tədqiqatın nəticələri beynəlxalq və ölkə daxilində təşkil olunan elmi praktik konfranslarda, elmi seminarlarda şərh edilmiş, müzakirə olunmuş, problemə yanaşma metodikası və elmi nəticələri bəyənilmişdir.

**Dissertasiya** Azərbaycan Memarlıq və İnşaat Universitetində yerinə yetirilmişdir.

**Dissertasiyanın strukturu və həcmi.** Dissertasiya işi - giriş, 3 fəsil, 9 paraqraf, nəticə, təklif, ədəbiyyat siyahısı və əlavədən ibarət olmaqla ümumilikdə 166 səhifədən və giriş 10964 işarə; birinci fəsil 69847 işarə; ikinci fəsil 79728 işarə; üçüncü fəsil 73365 işarə; nəticə və təkliflər 4079 işarə; ədəbiyyat siyahısı 19553 işarə olmaqla 295507 işarədən ibarətdir. Cədvəllər, şəkillər, diaqramlar, istifadə edilmiş ədəbiyyatlar və əlavə nəzərə alınmadan dissertasiya işinin həcmi 237983 işarə təşkil edir. Biblioqrafik siyahısı 128 adda ədəbiyyatı əhatə edir.

## MÜNDƏRİCAT

**GİRİŞ**

**I FƏSİL. TURİZM SƏNAYESİNİN İNKİŞAFININ SOSİAL-İQTİSADİ VƏ REGİONAL ASPEKTLƏRİ**

1.1. Turizmin inkişafının sosial-iqtisadi aspektləri və konseptual modelləri

1.2. Turizmin təşkilinin iqtisadi qiymətləndirilməsində innovativ metodiki yanaşmalar

1.3.Beynəlxalq turizm bazarının inkişaf tendensiyası və iqtisadi göstəriciləri

**II FƏSİL. AZƏRBAYCANDA TURİZMİN İNKİŞAF İSTİQAMƏTLƏRİ VƏ SOSİAL-İQTİSADİ NƏTİCƏLƏRİ**

2.1.Azərbaycanda turizm sənayesinin müasir vəziyyəti və inkişaf istiqamətləri

2.2.Azərbaycanda turizm sənayesinin mikro və makroiqtisadi təsirləri

2.3. İşğaldan azad olunmuş regionlarda turizm potensialının qiymətləndirilməsi

**III FƏSİL. İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ İNNOVATİV TURİZM SƏNAYESİNİN İNKİŞAF PERSPEKTİVLƏRİ VƏ KLASTERLƏRİN TƏŞKİLİ İMKANLARI**

3.1. İşğaldan azad olunmuş regionlarda turizmin təşkili və inkişaf istiqamətləri

3.2. İşğaldan azad olunmuş regionlarda innovativ turizmin inkişafında beynəlxalq təcrübədən istifadə imkanları

3.3.İşğaldan azad olunmuş regionlarda turizm növləri üzrə klasterlərin təşkili istiqamətləri

**NƏTİCƏ**

**TƏKLİFLƏR**

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI**

**ƏLAVƏLƏR**

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiyanın "Giriş" hissəsində mövzunun aktuallığı, işlənmə səviyyəsi vurğulanmış, tədqiqatın obyekti, predmeti, məqsəd və vəzifələri, tədqiqat metodları əks olunmuş, müdafiəyə çıxarılan əsas müddəalar və işin elmi yeniliyi göstərilmiş, dissertasiyanın yerinə yetirildiyi təşkilatın adı, onun quruluşu və həcmi adlanan yarımbaşlıqlarda müvafiq məlumatlar verilmişdir.

Dissertasiya işinin **"Turizm sənayesinin inkişafının sosial-iqtisadi və regional aspektləri"** adlanan birinci fəsil üç paraqrafdan ibarətdir. Turizmin təşkilinin iqtisadi qiymətləndirilməsində innovativ metodiki yanaşmalar bu sahənin təşkilinin iqtisadi qiymətləndirilməsində innovativ metodlardan istifadə olunması, bu sahədə mövcud olan innovativ yanaşmaların turizm destinasiyaları üzrə ən yaxşı təcrübələrin paylanılması, kreativ məhsulların formalaşdırılmasından ibarətdir. Ölkənin inkişaf etməmiş bölgəsində turizmin inkişafı ilə həmin bölgənin iqtisadiyyatına yeni resurslar daxil edilir, yeni iş yerləri, məşğulluq sahələri yaradılır və hər bir sektorda rayon iqtisadiyyatının verdiyi gəlir paralel olaraq artır. Modelləşdirmə innovasiyaya müəyyən yanaşmanı, onun inkişaf etdiyi formaları, sadələşdirilmiş və formal şəkildə dəyişikliyə səbəb olan qüvvələri ifadə edir. Hərtərəfli iddialara nəzər salmadan bəzi yanaşmaları qeyd etmək olar:

**Sintetik yanaşma** Barcet modeli kimi tanınan bu üsul müştəri ilə xidmət təminatçısını birləşdirən ardıcıl prosesi (müştəri gözləntilərindən provayder tərəfindən istifadə edilən vasitə və resurslara qədər) dörd səviyyəyə bölür:[4]

1 və 2-ci səviyyələr xidmətə olan tələbatı təmsil edir: müştəri sistemindəki yenilik (provayderlərin imkanları xaricində) və məhsul-xidmət innovasiyası. Burada diqqət müştərinin gözləntilərinə yönəldilir.

3 və 4-cü səviyyələr xidmətlərin təchizatıdır: Daxili və ya müştəri-xidmət provayderi münasibətlərini dəyişdirməyə yönəlmiş proses innovasiyası, çox vaxt daxili iş şəraitinin rasionallaşdırılmasına və ya müəyyən bir xidmətin ümumi təklif daxilində daha strateji

[4] Bahar, O. Turizm Ekonomisi / O.Bahar, M.Kozak. - Ankara: Detay Yayınçılık, - 2006. - 344 s.

yerləşdirilməsinə yönəldilir.

Bununla yanaşı turizm sənayesində struktur, müntəzəm, niş və inqilabi innovasiyalarda mövcuddur ki, bu da turizm sənayesində və cəmiyyətdə baş verən dəyişiklikləri əhatə edir. Turizm sektorunda müntəzəm innovasiyalar İKT tətbiqi, keyfiyyət standartlarının artırılması, cəlbedici məhsulların təklif edilməsindən ibarətdir. Niş və ya hədəfə yönələn innovasiyalarda isə bu sektorda fəaliyyət göstərən müəssislərin yeni biznes və ya məhsul tədarükçülərlə birlikdə əməkdaşlıq, ixtisaslaşdırılmış marketinq, məhsul və xidmətlərin yeni kombinasiyalarının təşkilinə əsaslanır. Struktur innovasiyalar isə yeni destinasiyaların cəlb edilməsi, aqro-eko turizm, yaşıl otellər, məhsul, xidmət, marketinq, təşkilati, mütərəqqi və radikal, sosial, davamlı və dağıdıcı kimi bir çox fərqli addımlardan ibarətdir.

**Turizmin inkişafının sosial-iqtisadi aspektləri və konseptual modellərində** turizm və kapital qoyuluşu, enerji və kənd təsərrüfatının inkişafı, yoxsulluq arasındakı əlaqələr, ümumi iqtisadi artım, destinasiyalar üzrə fərqli iqtisadi artıma səbəb olur. Turizm və iqtisadi inkişaf modellərinin təhlili göstərir ki, məşğulluq və gəlirlərin artırılması, əmtəə, ticarət, xidmət və digər sahələrə birbaşa təsir göstərir ki, bu da stimullaşdırıcı təsirlərlə birbaşa bağlıdır. Tədqiqatçılar turizmin inkişafının iqtisadi təsirini ölçmək üçün müxtəlif metodoloji yanaşmalar tətbiq etmişlər. Məsələn, Khalil və Kakar apardığı araşdırmalar nəticəsində turizmin qısa müddətdə Pakistanda iqtisadi artıma səbəb olduğunu ortaya çıxarmışlar. Müəyyən etmişlər ki, turizm və iqtisadi artım Qrencer modelinin spesifikasiyasından asılı olmayaraq bir-birinə təsir edir. Turizmin inkişafı və onun icma səviyyəsində təsiri iqtisadi artım vasitəsilə milli səviyyədə yoxsulluğun azaldılması ilə əlaqələndirilə bilər.

Turizm və kapitalın inkişafına təsirləri ölkəyə birbaşa xarici investisiyaların (BXİ) müəyyənedici amili kimi araşdırılır. Destinasiyanın cəlbedici amilləri turistlərin sayının artmasına təkan verir ki, bu da daha çox investisiya tələb edən turizmlə əlaqəli obyektlərə vəsaitləri yönəltmiş olur. Məsələn, Qrencer modelindən istifadə etmiş və Çində BXİ ilə turizm arasında bir istiqamətli əlaqə tapmış və turizmdəki sürətli artımın BXİ hesabına olduğunu irəli sürmüşlər.

Turizm və enerjinin inkişafı tədqiqatçılar tərəfindən gündəlik əməliyyatları həyata keçirmək üçün hər addımda enerji tələb edir. Bu araşdırmanın nəticələri turizm və enerji inkişafı arasında bir istiqamətli əlaqəni göstərir. Uzunmüddətli perspektivdə turizmin inkişafındakı 1% artım enerji inkişafını 0,13% artırır və Qrencer modeli turizmdən enerji inkişafına qədər uzanır[5].

Turizm və kənd təsərrüfatının inkişafı istiqamətində olan araşdırmalar icmaların inkişafının birbaşa dəstəklənməsini əhatə edir. Qrencer səbəb-nəticə mexanizmindən istifadə edən çoxvariantlı təhlildə Kosta Rika və Nikaraquada turizmin inkişafından kənd təsərrüfatının inkişafına uzanan bir istiqamətli əlaqəni təklif edərək, turizmin kənd təsərrüfatının inkişafına səbəb olduğu müəyyən edilmişdir. Kənd təsərrüfatı və turizm arasında gücləndirilmiş əlaqələr yerli istehsalı stimullaşdırmaq, turizmdən əldə olunan gəlirləri yerli ərazidə saxlamaq və turizmin iqtisadi faydalarının kənd əhalisi arasında bölüşdürülməsini yaxşılaşdırmaq üçün əhəmiyyətli imkanlar təqdim edir[6].

Turizm və yoxsulluğun azaldılması istiqamətində olan araşdırmalar daha çox icmaların və yerli əhalinin turizm sənayesinə cəlb edilməsini dəstəkləyirlər. Turizm inkişaf etməkdə olan iqtisadiyyat üçün nəzərə çarpacaq dərəcədə xarici valyuta əldə etmək, beynəlxalq sərmayələri cəlb etmək, vergi gəlirlərini artırmaq və iş imkanlarını təmin etmək üçün mühüm alət hesab olunur.

**Beynəlxalq turizm bazarının inkişaf tendensiyası və iqtisadi göstəricilərinin təhlili** 2020-ci ildə baş verən covid 19 pandemiyası daha çox zərər vurmuşdur ki, bu da 305 min insanın daimi iş yerini itirməsinə səbəb olmuşdur. Son üç ildə isə turizm hərəkatının tədricən bərpa olunmuş və beynəlxalq turizmdə iştirak edənlərin sayı 2023-cü ildə 1,286 mln (2019-cu illə müqayisədə 88,08%), turizm gəlirləri isə

[5] Tang, S. Foreign Direct Investment and Tourism: Empirical Evidence from China / Tang S., Selvanathan E.A., Selvanathan S. // Tour. Econ., - 2007. №13. – p.25-39.
[6] Vanegas, M. Tourism and Poverty Reduction An economic sector analysis for Costa Rica and Nicaragua / M.Vanegas, W.Gartner, B.Senauer // Tour.Econ., - 2015. №21, - p.159-182.

1,380 mlrd. dollar (2019-cu illə müqayisədə 93,2%) təşkil etmişdir[7].




**Şəkil 1. Beynəlxalq turizmin dinamikası[8]**

Apardığımız təhlillər göstərir ki, turist axınlarının qiymətləndirilməsində ənənəvi destinasiyalarla yanaşı yeni turizm mərkəzlərinin təqdim olunması tələbatın yüksəlməsini təmin etmiş, bu da iqtisadi canlanmaya səbəb olmuşdur. Beynəlxalq səviyyədə turizm industriyasının perspektiv inkişaf istiqamətləri kimi mədəni, etno-mədəni, açıq hava fəaliyyətləri, işgüzar və tədbir turizminə, kruizlərə tələbatın artdığını görmək mümkündür. Beynəlxalq turizm industriyasında sahil zonalarında (Aralıq, Adriatik, Egey, Karib hövzəsi və s.), dağlıq və təbiət əraziləri (Alp, Balkan ölkələri, Skandinaviya ölkələri) turizm klasterlərinin daha çox məhsul təqdim etməsi ilə xarakterizə olunur. Beynəlxalq turizm bazarında xarakterik tendensiyalarının təhlilindən aydın olur ki, turizm məhsullarının diversifikasiyası, daxili turizmin inkişafı, üçüncü yaş qrupu (60 yaşdan yuxarı) turistlərin sayı və xidmətlərin artması, kütləvi turizmin

---

[7] Travel Market Report 2024 Outlook: [Electronic resource] / November 2023. URL: https://www.bcdtravel.com/wp-content/uploads/BCD-Travel-Travel-Market-Report-2024-Outlook.pdf

[8] Tourism and the Sustainable Development Goals-Journey to 2030: [Electronic resource] / January 25, 2018 / URL: https://www.unwto.org/global/publication/tourism-and-sustainable-development-goals-journey-2030

postpandemiyadan sonra populyarlığının bərpası, yeni destinasiyaların formalaşmasına təkan vermişdir.

“**Azərbaycanda turizmin inkişaf istiqamətləri və sosial-iqtisadi nəticələri”** adlanan ikinci fəsil üç paraqrafdan ibarət olmaqla ölkədə turizmin inkişafının əsas istiqamətləri, makro və mikroiqtisadi təsirləri, işğaldan azad olunmuş ərazilərin turizm potensialının müəyyən edilməsindən ibarətdir. Azərbaycanda turizm sənayesinin müasir vəziyyəti və inkişaf istiqamətləri iqtisadiyyatın qeyri-neft sektorunun əsas sahələrindən biri olması, əlavə iş yerləri yaradan, yol və mehmanxana tikintisinin inkişafını sürətləndirən, ənənəvi sənətkarlığın və milli mədəniyyətimizin qorunub saxlanmasına töhfə verən sahə kimi təhlil edilir. Eyni zamanda, 2012-ci ildən başlayaraq Eurovision Mahnı Müsabiqəsi, FIFA-nın U-17 Qadınlararası Dünya Kubokuna ev sahibliyi, 2016-cı ildə isə ilk dəfə Avropa Oyunları Azərbaycanda keçirilməsi, Bakı 2016-cı ildə Bakı Şəhər Halqasında beş Formula 1 Qran Prisi tədbiri, 2017-ci ildə İslam Həmrəyliyi Oyunları, 2019-cu ildə isə 5-ci Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu, 2023-cü ildə Beynəlxalq Astronomiya tədbirləri ölkədə beynəlxalq turizmin inkişafına təkan verən amillərdəndir. Azərbaycanda turizm strategiyasının 2023-2026-cı illərdə əsas turizm istiqamətlərinin müəyyən edilmişdir. Turizm strategiyasının doqquz təməl istiqaməti müəyyən edilmişdir ki, turizm sektorunun ÜDM payının artırılması, iqtisadiyyata birbaşa təsirlərinin yüksəldilməsi və əhalinin məşğulluğunun təmin edilməsi kimi istiqamətləri əhatə edir. Eyni zamanda, strateji yol xəritəsində müəyyən edilən hədəf ölkələrlə hava nəqliyyatı əlaqələrinin təkminləşdirilməsi və əlçatanlığın təmin olunması istiqamətində tədbirlər görülür.

DSX verdiyi məlumata görə 2021-ci ildə dünyanın 165-dən çox ölkəsindən gələnlərin sayı 791,8 min nəfər olmuşdur ki, bu da 2019-cu ilin nəticələrinin 28,6%-ini təşkil etmişdir. 2022-ci ildə isə bu rəqəm 1,6 mln nəfərə çatmışdır ki, ölkəyə daha çox vətəndaşların daxil olduğu 2019-cu ildə isə 3,8 mln nəfər təşkil etmişdir. 2022-ci ildə ölkəyə gələnlər 2019-cu illə müqayisədə 42,1% təşkil etmişdir. 2021-2023-cü ilin son doqquz ayının hesablamalarına görə ölkəyə gələn turistlərin sayı artsa da, bunun əsas hissəsi Rusiya və digər MDB ölkələrinin payına düşmüşdür. Bununla yanaşı, Türkiyədən gələn

turistlərin sayının artması bu sahədə müsbət tendensiya sayıla bilər[9].

Ölkəyə gələn turistlərin orta qalma müddəti 3-6 gün təşkil edir ki, bu da yaxın region ölkələri ilə müqayisədə müsbət göstərici sayıla bilər. Gələn turistlərin məqsədinə görə təhlil edildikdə məlum olur ki, işgüzar məqsədlərlə gələnlər üstünlük təşkil etsə də, istirahət, mədəni-dərketmə, sağlamlıq mərkəzlərini seçən turistlərin sayı artmışdır. İstirahət, sağlamlıq, mədəni-dərketmə məqsədləri ilə gələn turistlərin dinamikliyinin təmin olunması onların ölkədə qalma müddətinin artmasına səbəb olmuşdur.

**Cədvəl 1.**

**Azərbaycanda gəlmə turizmin dinamikası (min nəfər)** [10]

| | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|---|---|
| Azərbaycana gələn xarici ölkə vətəndaşlarının sayı- cəmi (min nəfər) | 2 006,2 | 2 248,8 | 2,696.7 | 2,849.6 | 3 170,4 | 795.7 | 791,8 | 1,602.3 |
| səfərlərin məqsədləri üzrə: | | | | | | | | |
| turizm məqsədilə | 1,921.90 | 2 044,7 | 2,454.0 | 2,605.3 | 2,863.50 | 519.4 | 461.7 | 1,058.1 |
| onlardan: | | | | | | | | |
| istirahət, əyləncə turizmi | 668.8 | 697.1 | 839.3 | 1,042.4 | 1,164.00 | 164.9 | 132.4 | 398.5 |
| işgüzar turizm | 632.3 | 691.7 | 834.4 | 787.4 | 850.5 | 177.5 | 196.7 | 400.5 |
| müalicə turizmi | 36.5 | 41.5 | 49.1 | 63.1 | 63.9 | 10.4 | 8.3 | 14.0 |
| dini turizm | 11.5 | 12.6 | 14.7 | 15.3 | 16.6 | 3.0 | 0.9 | 2.2 |
| qohumların, dostların ziyarəti | 542 | 562.0 | 674.9 | 651.6 | 719.9 | 133.2 | 100.7 | 184.8 |
| digər turizm məqsədilə | 30.8 | 39.8 | 41.6 | 45.5 | 48.6 | 30.4 | 22.7 | 58.1 |
| digər məqsədlə | 84.3 | 204.1 | 242.7 | 244.3 | 306.9 | 276.3 | 330.1 | 544.2 |

[9] Azərbaycan Dövlət Statistika Komitəsi. Azərbaycanda turizm statistik məcmuə. – Bakı, - 2023, - 101 s.

[10] Azərbaycan Dövlət Statistika Komitəsi. Azərbaycanda turizm statistik məcmuə. – Bakı, - 2023, - 101 s.

Postpandemiya dövründə turizm sektorunda inkişafın təmin olunması 2019-cu il səviyyəsinə gəlib çatmasını təmin etməmişdir. Belə ki, 2021-ci ildə ÜDM-də payı 1,3%, 2022-ci ildə isə 1,6% təşkil etmişdir. Onu da qeyd edək ki, ölkədə quru yolların pandemiya səbəbindən bağlı olması, hava nəqliyyatında qiymətlərin yüksək olması ilə bağlı olaraq gəlmə turizmdə artım təmin etməyə imkan verməmişdir.

Mehmanxana və ona bərabər tutulan yerləşmə müəssisələrinin dinamikasında baş verən artım bu sahəyə olan tələbatın yüksəlməsi ilə bağlıdır. Ölkədə gecələmə yerlərinin sayı 2015-ci illə müqayisədə 2022-ci ildə 35,6% artıma nail olunmuşdur. Onu da qeyd edək ki, otellərin birdəfəlik tutumu 60 minə çatır ki, bununda 42,8%-i Bakı şəhərinin payına düşür. Otellərin gəlirləri dinamik olaraq yüksəlmişdir ki, bununda əsas hissəsi birbaşa otaq satışından əldə olunmuşdur. Belə ki, 2015-ci illə müqayisədə 2022-ci ildə otellərin gəlirləri iki dəfəyə yaxın artmışdır. Ölkəyə ən yüksək turist axınlarının müşahidə edildiyi 2019-cu ildə 450,2 mln manat təşkil etdiyi halda, 2022-ci ildə 21,0 % azalaraq 355,3 mln manat təşkil etmişdir. Dövlət büdcəsinə ödəmələr 2019-cu ildə 42,3 mln manat olduğu halda, 2022-ci ildə bu rəqəm 40,1% azalmışdır[11].

**Azərbaycanda turizm sənayesinin mikro və makroiqtisadi təsirləri** ölkənin iqtisadi inkişafında turizm sektorunun rolu, dinamikliyinin təmin edilməsi iqtisadiyyatın ümumi inkişafı ilə birbaşa müəyyən edir. ÜDM-də turizm sənayesinin birbaşa təsirləri son illər dinamik olaraq artsa da, bu iqtisadi inkişaf üçün stimul rolu oynamışdır.

ÜDM turizm sənayesində payının artması daha çox mikroiqtisadi təsirlərdə özünü göstərir ki, bu da regionlarda əhalinin gəlirlərinin formalaşmasında əhəmiyyətli olmuşdur. ÜDM-də turizmin birbaşa təsirlərinin əsasən 3,5-4,5% arasında dəyişməsi iqtisadiyyatın strukturunda yanacaq energetika balansı çox olan ölkələr üçün normal göstərici sayılır.

[11] State Tourism Agency of the Republic of Azerbaijan's Post: [Elektron resurs] / URL: https://tourism.gov.az/en/page/statistics




**Şəkil 2. Turizm sektorunun ÜDM-in həcminə birbaşa təsirləri və dinamikası[12]**

Belə ki, ÜDM əsas hissəsi yanacaq energetika sənayesindən asılı olan əksəriyyət ölkələrdə turizm sektorunun payı 3,5-5% arasında dəyişir. Pandemiya müddətində turizm sektorunun ÜDM təsirləri 1,2%-ə qədər azalmışdır. Onu da qeyd edək ki, 2022-ci ildə ÜDM birbaşa təsirlər 2,5% -ə yaxın olmuşdur ki, hələ də bu göstəricinin 2015-ci səviyyəsinə çatmamışdır. Dünya Turizm və Ekskursiya Şurasının 2022-ci il hesabatında Azərbaycanda turizmin ÜDM-də ümumi payının (investisiya, istehsalat zənciri və gəlirləri çox olan təsirlər də daxil olmaqla) 1,2 milyard dollar yaxın olduğu qeyd edilmişdir.

Turistlərin yerləşdirilməsi və iaşə sektorunun ÜDM-də payının dinamikliyi müxtəlif iqtisadi səbəblər, inflyasiya, manatın devalvasiyası, pandemiya ilə bağlı olaraq azalması da müşahidə edilmişdir. ÜDM-də qeyd olunan sektorun payının ən yüksək dövrü 2,4% təşkil etmiş, 2013-2015-ci ildə manatın devalvasiyası ilə bağlı olaraq 1,8%, 2020-ci ildə pandemiya ilə bağlı olaraq 1,1%-ə düşmüşdür. Ən yüksək artım isə 2016-2018-ci illər arasında iki dəfədən çox olmuşdur. Turizmdə otellər, istirahət mərkəzləri, iaşə müəssisələrinə tələbatın artması yerləşmə və iaşə müəssisələrinin tikintisini sürətləndirmişdir. Turistlərin yerləşdirilməsi və iaşə

[12] Turizmin ÜDM-in həcminə və artım tempinə birbaşa təsiri: [Elektron resurs] / URL: https://sdg.azstat.gov.az/az/indicators/437/turizmin-udm-in-hecmine-ve-artim-tempine-birbasa-tesiri

sektorunun yaratdığı dəyər ümumi iqtisadi fəaliyyət növünün 4,04%-ini təşkil edir.

Turizm sektorunda yerləşmə müəssisələri və iaşə xidmətində məşğulluq aşağı olaraq qalır. Postpandemiya dövründə isə bərpa prosesi nisbətən ləng getmiş və məşğul əhalinin payının artması az müşahidə edilmişdir. 2022-ci ildə post pandemiya dövründə turizmdə məşğulluq 153,1 min nəfər təşkil etmişdir ki, bu da məşğulluğun ən yüksək olduğu dövrdən (2018-ci il) 4,1% aşağıdır.

**İşğaldan azad olunmuş regionlarda turizm potensialının qiymətləndirilməsində** reytinq, müqayisə, inteqral, klaster yanaşmalarından istifadə olunmuşdur. Turizm fəaliyyətinin ərazi təşkili potensialını qiymətləndirmə yeni yanaşmaları ortaya qoyur ki, bu da çox kriteriyalı və strateji inkişaf istiqamətlərini şərtləndirir. Reytinq qiymətləndirilməsində turizm potensialının böyüklüyünə görə hansı rayonun daha prioritet hesab olunduğu müəyyən edilir və ərazilər həmin göstəriciyə görə müvafiq şəkildə sıralanır. İşğaldan azad olunmuş ərazilərin turizm potensialına reytinq qiymətləndirilməsində onların növ müxtəlifliyi, rayonlar üzrə təminat səviyyəsi və çoxkriteriyalı qiymətləndirmədən əldə olunan nəticələr əsasında müəyyən edilmişdir. Belə ki, sağlamlıq turizm potensialına görə Kəlbəcər, Laçın, Şuşa rayonları digər regionlarla müqayisədə üstün mövqeyə malikdir. Bu rayonlarda termal müalicəvi sular, balneoloji-iqlim resursları, fito müalicə imkanları və cəlbedici landşaft amilləri digər rayonlardan üstündür və daha perspektivli sayılır. Ekoloji və açıq hava turizm fəaliyyətləri ilə bağlı resursların qiymətləndirilməsində bütünlüklə işğaldan azad olunmuş ərazilərdə potensialın olmasına baxmayaraq bəzi destinasiyalar xüsusilə seçilir. Belə destinasiyalara Xocavənd rayonunda Hadrut qəsəbəsi, Tuğ, Tağlar, Azıx kəndləri və ətraf ərazilər, Kəlbəcər rayonun yaylaqları, Zülfüqarlı, Comərd, İstisu, Keşdək və digər dağlıq və dağ ətəyi əraziləri, Laçın rayonun Minkənd, Mirik, Əhmədli, həmçinin Həkəri çay dərəsində olan ərazilər, Suqovuşan qəsəbəsi ətrafında olan ərazilər ekoloji turizm baxımından daha əlverişli ərazilər kimi qeyd etmək olar. İşğaldan azad olunmuş ərazilərdə qeyd olunan metodikaya uyğun olaraq turizm potensialının çox kriteriyalı qiymətləndirilməsində aşağıdakı amillər nəzərə alınmışdır:

İşğaldan azad olunmuş ərazilərdə 687 qeydə alınmış, bir neçə yüz qeydə alınmamış arxeoloji və memarlıq abidələrinə rast gəlinir. Abidələr barədə cədvəldə qeyd olunan statistik məlumatlara əsasən qeyd edə bilərik ki, bölgədə mədəni irs abidələri bütün ərazilər də yayılsa da, onların daha çox cəmləndiyi destinasiyalara Şuşa şəhəri, Tuğ-Azıx-Tağlar yaşayış məntəqələri, Kəlbəcər rayonun Zülfüqarlı və Vəng kəndləri, Ağdamda Şahbulaq qalası və ətrafında olan arxeoloji abidələri qeyd etmək olar. Onu da qeyd edək ki, regionda tarixi mədəni irsin resurslarının çox kriteriyalı qiymətləndirilməsinə görə Şuşa, Xocavənd, Kəlbəcər rayonları yüksək, Laçın, Ağdam rayonları orta, Füzuli, Cəbrayıl, Zəngilan rayonları nisbətən orta göstəriciyə malikdir[13].

**Təbiətlə bağlı turizm resursları və aktivitiləri.** İşğaldan azad olunmuş ərazilərin iqlim xüsusiyyətləri sağlamlıq istirahət, qış turizmi, ekoturizm və digər açıq hava turizm fəaliyyətləri üçün əlverişli hesab edilir. Qış turizminin inkişafı üçün əlverişli olan ərazilər əsasən 1500 m-dən yüksək olan orta və alçaq dağlığı əhatə edir və qarlı günlərin sayı 102-150 günə çatır. Kəlbəcər rayonun İstisu, Dəmirçidam, Zivel, Soltan Heydər, Zülfüqarlı, Qamışlı, Keçiqaya, Bağırsaq, Laçın rayonun dağ kəndləri, Çilgəz və Qıxqız dağlarının ətraf kəndlərinin ətrafındakı yaylaqlarda və dağlıq ərazilərdə qar örtüyünün üstünlüyü qış turizmi üçün əlverişli şərait yaradır.

**Su idman fəaliyyətləri üçün əlverişli resurslar.** İşğaldan azad olunmuş ərazilər sıx hidroloji şəbəkəyə malik olmaqla, turizm baxımından yüksək əhəmiyyət kəsb edən gursulu, şəffaf çayları, biokütlə ilə zəngin olan göllərinə görə fərqlənir. Tərtər çayı və qolları olan Tutqun, Ağdaban, Levçay, həmçinin, Həkəri çayı, qolları olan Bərgüşad və Hoçaz çayları raftinq və digər su idman növlərinin təşkili üçün əlverişlidir. İşğaldan azad olunmuş ərazilərdə bir çox vulkanik və uçqun bənd gölləri vardır ki, bu da qış-yay, istirahət və açıq hava turizm fəaliyyətlərinin müxtəlif növlərinin inkişafı üçün əlverişlidir.

**Sağlamlıq turizminin resursları.** İşğaldan azad olunmuş

---

[13] Azərbaycan Respublikası ərazisində dövlət mühafizəsinə götürülmüş daşınmaz tarix və mədəniyyət abidələrinin əhəmiyyət dərəcələrinə görə bölgüsünün təsdiq edilməsi haqqında: [Elektron resurs] / 02 avqust, 2001. URL: https://e-qanun.az/framework/2847

ərazilərdə sağlamlıq turizm resurslarına zəngin mineral və termal suları, müalicəvi mikroiqlimi, oksigenlə zəngin təmiz havası, ekzotik landşaftı sağlamlıq turizminin inkişafı üçün əlverişli şərait yaradır. Regionda 400-dən çox mineral və termal su mənbələri vardır ki, bunun da əsas hissəsi Kəlbəcər, Laçın, Şuşa rayonlarında cəmlənib. Kəlbəcərin İstisu, Zülfüqarlı və Zar kəndlərində, Laçının Minkənd, Əhmədli, Qızılça, Korbulaq yaşayış məntəqələri ətrafı, Şuşa rayonunda Turşsu, Şırlan mineral suları və s. qeyd etmək olar. Xüsusilə Kəlbəcər  və Laçın rayonunda olan mineral müalicəvi sular beynəlxalq analoqları ilə müqayisədə üstün olduğu təsdiq olunmuşdur.

**Ərazidə meşələr, kolluqlar, yaşıllıq sahələri.** İşğaldan azad olunmuş ərazilərin zəngin bitki örtüyü, meşələri, ekzotik landşaftı, xüsusilə dağ-çəmən landşaftı turizm üçün cəlbedici amillərdən sayılır. Regionda dağ-meşə landşaftı ümumi ərazinin 19%-ini təşkil edir ki, bununda əsas hissəsi Kəlbəcər, Laçın, Şuşa, Xocavənd rayonlarını əhatə edir.

**“İşğaldan azad olunmuş ərazilərdə innovativ turizm sənayesinin inkişaf perspektivləri və klasterlərinin təşkili imkanları”** adlanan üçüncü fəsildə regionda turizm potensialından istifadə imkanları, turizm klasterlərinin yaradılması, daha yaxşı beynəlxalq təcrübənin öyrənilməsi, TRZ formalaşdırılması tədqiq olunur. İşğaldan azad olunmuş ərazilərdə maraqlı tərəflər dövlət orqanları ilə yanaşı, turizm sənayesinin subyektləri, idarəetmə orqanları, QHT, icmalar və s. maraqlı tərəflərin matrisinə daxil ola bilər.

DTA işğaldan azad olunmuş ərazilərdə turizm strategiyasının müəyyən edilməsində regionda ixtisaslaşdırılmış turizm destinasiyalarının, TRZ və klasterlərin təşkilində maraqlıdır. Bu baxımdan ixtisaslaşdırılmış destinasiyalar sağlamlıq, eko-sağlamlıq, mədəni, etno-mədəni, eko-mədəni, biznes-turizm və açıq hava turizm fəaliyyətlərini əhatə edir ki, bu da rayonlar üzrə yaradılan TRZ daxilində planlaşdırılır.




**Şəkil 3. İşğaldan azad olunmuş ərazilərdə maraqlı tərəflərin (stakeholders) analizi**

*Mənbə. Müəllif tərəfindən tərtib edilmişdir.*

Belə ki, Kəlbəcər və Laçın rayonlarında sağlamlıq, eko-sağlamlıq, sağlamlıq-istirahət, eko-aqro turizm, Xocavənd rayonunda ekoturizm, eko-mədəni, eko-aqro, istirahət, Şuşa şəhəri mədəni, istirahət-sağlamlıq, tədbir, etno-mədəni, kreativ turizm, Qubadlı və Zəngilan rayonlarında ekoturizm, sağlamlıq-istirahət, Ağdam rayonunda mədəni, etno-mədəni turizm, Ağdərə rayonunda eko-mədəni, istirahət-sağlamlıq turizm növləri üzrə klasterlərin təşkili potensialı vardır. Hazırda regionun cəlbediciliyi yüksək turist axınlarının təmin olunmasına imkan verir. DTA verdiyi məlumata görə Şuşa və Ağdama gedənlərin sayı 2022-cü ildə səfər edənlərin sayı 21 min nəfəri keçmişdir. Bunun 17 min nəfərindən çoxu Şuşa şəhərinə səfər etmişdir. 2023-cü ildə Şuşa şəhərinə səfər edənlərin sayı 18357, Laçın şəhərinə 16830, Ağdam şəhərinə isə 6320 nəfər təşkil etmişdir. DTA verdiyi məlumata görə hazırda Şuşa şəhərində üç otel (Şuşa otel-konqres mərkəzi-154 nömrə, Xarı Bülbül oteli-48 nömrə, Qarabağ

oteli-96 nömrə), bir otel-restoran (Yasəmən otel-restoran-20 nömrə), Laçın şəhərində 45 kottecdən ibarət "Abdallar", 4 kottecdən ibarət "Həkəri" istirahət kompleksi, Ağdamda bir otel (Ağdam City Hotel-130 nömrə), bir konqres mərkəzi (Ağdam konqres mərkəzi-36 nömrə), Xankəndi şəhərində iki otel (Palace otel-54 nömrə, Qarabağ otel-62 nömrə) fəaliyyət göstərir. Ümumilikdə regionda  nömrə fondu 649 çatan yerləşmə müəssisləri fəaliyyət göstərir ki, bu da regiona gələn turistlərin gecələmələri və istirahəti üçün əlverişli şərait yaradır.[14]

Özəl və dövlət sektorunda qurum və təşkilatlar tərəfindən tez-tez istifadə edilən bir analiz növü olan PESTLE analizi, qurumların uğur və ya uğursuzluğunda təsirli ola bilər. Bölgədə iqtisadi inkişafı stimullaşdıracaq əsas amillərə son üç ildə yeni idarəetmə sistemlərinin tətbiqi, xüsusi nümayəndəliklərin təsis olunması, sahibkarlar üçün bir çox güzəştlərin tətbiqi, qanunvericilikdə stimullaşdırıcı amillərin nəzərdə tutulması və dövlətin birbaşa infrastrukturun bərpasına əhəmiyyətli miqyasda büdcə vəsaitlərinin yönəldilməsini qeyd etmək olar. Regionda iqtisadi inkişafı dinamikliyin təmin edilməsi üçün vergi güzəştləri, rezident və qeyri-rezidentlərin ASAN xidmət vasitəsilə qeydiyyatı, sosial sığorta güzəştləri xüsusilə qeyd etmək olar. Bölgədə sahibkarlıq mühitinin yaxşılaşdırılması və sosial-iqtisadi inkişafı sürətləndirmək üçün 2023-cü ildən etibarən 10 il müddətində mənfəət, əmlak, torpaq, sadələşdirilmiş vergi, həmçinin ƏDV ödəyicisi olan sahibkarların idxal etdikləri texnika və texnoloji avadanlıqlar, xammal, materiallar vergidən azad edilmişdir. Bununla yanaşı, regionda vergi uçotuna alınmış hüquqi və fiziki şəxslərin ticarət, tikinti və xidmət sahələri də vergidən azad olunması təsdiq olunmuşdur. Bura, turizm, pərakəndə ticarət və iaşə obyektlərinin aid edilməsi bölgədə turizmin inkişafında kiçik sahibkarlıq subyektlərinin aktiv iştirakını təmin edə bilər. Əmək haqqının birgə maliyyələşməsini nəzərdə tutan güzəştlərdə isə Dövlət Məşğulluq Agentliyinin işğaldan azad olunmuş ərazilər üçün peşə hazırlığı üzrə təlim keçmiş kadrlarının əmək haqqının 50% dövlət tərəfindən ödənilməsi təmin ediləcəkdir.

İşğaldan azad olunmuş regionlarda innovativ turizmin

---

[14] State Tourism Agency of the Republic of Azerbaijan's Post: [Elektron resurs] / URL: https://tourism.gov.az/en/page/statistics

inkişafında beynəlxalq təcrübənin tədqiqat regionunda turizmin inkişafında yenilənmiş modellər və cəlbedici turizm məkanlarının formalaşdırılmasında təmin edilə bilər. Belə innovativ həll modellərinin ağıllı yaşayış məntəqələrinin tikintisində, Şuşa şəhərində olan otellərdə təqdim olunur. Belə ki, qeyd olunan otellərdə işgüzar və istirahət imkanlarının birgə təqdim olunması, həmçinin müxtəlif tədbirlərin keçirilməsi üçün şəraitin yaradılması Şuşa şəhərinin kreativ turizm destinasiyası kimi formalaşmasına şərait yaradır.

Beynəlxalq təcrübənin işğaldan azad olunmuş ərazilərdə tətbiqi daha çox kənd təsərrüfatı və turizm sektoru arasında əlaqələrin təmin olunması və inkişafa yönələn tədbirlərdən ibarətdir. Beynəlxalq təcrübədə kənd təsərrüfatının inkişafının 1% artımı, turizm sektorunda 0,26% artımda özünü büruzə verir. İşğaldan azad olunmuş ərazilərdə kənd təsərrüfatının prioritet olmasını nəzərə alaraq aqro təsərrüfatların və icmaların turizm sektoruna xidmət göstərməklə yaşayışın stimullaşdırılmasına şərait yaradacaqdır.

Buna görə də, regionda turizmin inkişafının SWOT təhlili bu sahədə əsas indikatorların müəyyən edilməsinə imkan verir. Bununla yanaşı, beynəlxalq təcrübəyə əsaslanaraq potensialın idarəedilməsinin strategiyasında SWOT təhlilin aparılması inkişaf impluslarının müəyyənləşdirilməsinə, problemlərin təhlilinə, investisiyaların cəlb edilməsinə, iqtisadi inkişafın optimallaşdırılmasına şərait yaradır.

İşğaldan azad olunmuş ərazilərdə gələcəkdə formalaşacaq turizm destinasiyalarında sağlamlıq, eko-sağlamlıq, ekoloji, açıq hava turizm fəaliyyətləri, istirahət, eko-mədəni və etno-mədəni, festival və kreativ istiqamətli klasterlərinin təşkili mümkündür. İşğaldan azad olunmuş ərazilərdə sağlamlıq, eko-sağlamlıq klasterləri Kəlbəcər, Laçın və Şuşa rayonlarını, açıq hava turizm klasterləri Kəlbəcər, Laçın, Xocavənd, Tərtər, Zəngilan, Qubadlı rayonları daxilində, eko-aqroturizm, eko-mədəni və etno-mədəni klasterləri Şuşa şəhəri, həmçinin Ağdam, Xocavənd rayonunda Tuğ-Azıx-Tağlar yaşayış məntəqələrində rəqabətə davamlı klasterlər formalaşdıra bilər.

Bölgədə ekoturizm və açıq hava turizm fəaliyyətləri üçün Kəlbəcər rayonunda vulkanik göllərin ətrafı, Tərtər və Tutqun çay kanyonları, şəlalələri, Xocavənd rayonun Hadrut, Azıx, Tuğ, Tağlar yaşayış məntəqələrinin ətrafında olan meşəlik ərazilər, speleoturizm

üçün əlverişli mağaralar, geomorfoloji abidələr, Laçın rayonunda qırmızı yarpaq palıd meşələri, dağ silsilələri və vulkanik göllər, Həkəri, Bərgüşad çaylarının kanyonları, şəlalələrin, Zəngilan rayonunda Oxçu və Bəsitçay ətrafındakı meşəlik ərazilər, Şuşa şəhəri və Daşaltı ətrafındakı meşəlik ərazilər, çətirli şəlalə, Xan mağarası, dağa dırmanma, yamac paraşütü imkanları, Suqovuşan ətrafındakı ekoturizm imkanların qeyd etmək olar. Bu ərazilərdə ixtisaslaşmış ekoturizm sahələrindən olan piyada turizm, speleoturizm, dağa dırmanma, yamac paraşütü, zıplainq, raftinq və su turizminin müxtəlif növlərinin inkişafı üçün əlverişli şərait mövcuddur. Ekoturizm beynəlxalq miqyasda ümumi turist axınlarının 30%-dən çoxunu (Azərbaycanda 2,5%) təşkil edir və dinamik olaraq artır.

Bölgədə bir çox müalicəvi suların olması, əlverişli mikroiqlim şəraiti, fitobitkilərin mövcudluğu sağlamlıq turizminin inkişafına əlverişli şərait yaradır. Kəlbəcər şəhərinin baş planında kurort-sağlamlıq amillərinə üstünlük verilməsi, 2022-ci ildə "İsti su" sanatoriyasının təməlinin qoyulması rayonun termal sağlamlıq və eko-sağlamlıq destinasiyası kimi İstisu, Zülfüqarlı, Minkənd, Turşsu formalaşa bilər. Sağlamlıq turizm sahəsində beynəlxalq trendlərin araşdırılması göstərir ki, son on ildə bu sahəyə tələbat yüksək olsa da, ümumi turist axınlarının 10-14%-ini (Azərbaycanda 2%) təşkil edir. Buna görə də işğaldan azad olunmuş ərazilərdə sağlamlıq turizm klasterləri termal turizmlə yanaşı, tibbi mərkəzlərin formalaşması, fitoteriya və eko-sağlamlıq imkanlarından yararlanmaq birgə istifadə olunması onun rəqabət imkanlarını artırmış olardı.

Mədəni turizm klasterləri Şuşa şəhəri, Azıx-Tuğ, Ağdam-Şahbulaq yaşayış məntəqələrində təşkili mümkündür. Şuşa şəhərində mədəni-dərketmə ekskursiya marşrutları, Azıx-Tuğ-Tağlar, Ağdam, Xocavənd, Cəbrayıl, Qubadlı, Laçın rayonlarının tarixi-mədəni irs potensialından istifadəyə əsaslanan turizm dəhlizlərinin təşkili onun cəlbediciliyini artırmış olacaqdır. Regionda milli və yerli mətbəx nümunələrinə aid bir çox qidalanma məhsulları hazırlanır ki, bunlarda qastronomik turizmin inkişafı üçün baza ola bilər. Eyni zamanda, Kəlbəcər və Laçın balı, digər arı məhsulları, Şərqi Zəngəzurun fitobitkilərindən hazırlanan müalicəvi çaylar, Kəlbəcərin süd məhsulları turizmin inkişafında bioqida istehsalında və qablaşdırılmış

şəkildə turistlərə satılması icma turizmin inkişafına təkan verəcəkdir.

Regionda turizmin inkişafında əsas istiqamətlərdən bir də istirahət və əyləncə xidmətlərinin təşkili ilə bağlıdır ki, bu da həm Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarının əksəriyyət yaşayış məntəqələrində təşkil etmək mümkündür. Bu məqsədlə Şuşa rayonun Daşaltı, Turşsu kəndləri, Hadrut qəsəbəsi, Tuğ kəndi, Ağdərə rayonun Suqovuşan qəsəbəsi, Talış və Heyvalı kəndləri, Ağdam rayonun İmarət Qərvənt kəndi, Cəbrayıl rayonun Dağ Tumas kəndi, Zəngilan rayonun Qaragöl ətrafı əraziləri, Laçın rayonun Minkənd, Ağbulaq kəndləri, Kəlbəcər rayonun Vəng, Zülfüqarlı kəndlərində istirahət və əyləncə turizm klasterləri daha cəlbedici imkanlara malikdir. Qeyd olunan turizm növü beynəlxalq turizmdə 55 %, ölkəmizdə isə 35% təşkil edir ki, bu da regionun potensialından səmərəli istifadə etməklə rəqabətqabiliyyətli məhsullar təqdim etməyə səbəb olacaqdır.

Regionda mühüm nəqliyyat qovşaqlarının formalaşması, avtomobil, dəmir yolu, hava nəqliyyatının inkişafı, həmçinin gələcəkdə mühüm ticarət yollarının kəsişməsi, loqistika mərkəzlərinin yaradılması işgüzar turizmin inkişafına təkan verəcəkdir. Xüsusilə Zəngilan rayonu Mincivan qəsəbəsi, Cəbrayıl rayonun Arazyanı loqistika mərkəzi, Qubadlı rayonun Xanlıq qəsəbəsi qeyd olunan qovşaqlarda yerləşməsi işgüzar turizmin inkişafı üçün əlverişli yaşayış məntəqələrindən ibarət olacaqdır. İşgüzar turizm üzrə beynəlxalq turist axınlarının təhlili göstərir ki, bu sahə ümumi turist axınlarının 11-13% (Azərbaycanda 30%) təşkil edir.

Bölgədə əhalinin məskunlaşması, ağıllı kənd və şəhər konsepsiyalarının tətbiqi aqro və icma turizminin inkişafına təkan verəcəkdir. Aqroturizm klasterləri Zəngilan, Qubadlı, Laçın, Kəlbəcər, Xocavənd rayonlarının yaşayış məntəqələrində planlaşdırıla bilər. İşğaldan azad olunmuş ərazilərdə aqro-eko və icma əsaslı turizmin inkişafı həm kənd təsərrüfatı həm də, ətraf mühit, yerli ənənələrə əsaslana bilər.

Regionda qış turizminin inkişafı üçün Kəlbəcər, Laçın və Şuşa rayonlarının dağlıq əraziləri daha əlverişli hesab edilir. Kəlbəcər rayonunda Dəmirçidam, Soltan Heydər yaşayış məntəqələri, Böyük Alagöl, Kiçik Alagöl və Keşdək dağının ətəkləri, Laçın rayonunda Minkənd və ətraf ərazilər, Farmaçtəpə, Qızıltəpə dağlarının ətəkləri

daha əlverişlidir. Dünya Səyahət və Turizm Şurasının verdiyi məlumata görə qış turizmində iştirak edən 30-35% təşkil edir ki, bu da turistlərin cəlb edilməsi baxımından əlverişli hesab edilir. Azərbaycanda isə qış turizm mərkəzləri olan Şahdağ (Qusar rayonu), Tufandağ (Qəbələ), Ağbulaq (Şahbuz) 2021-2022 qış mövsümündə gələnlərin ümumi sayı gecələmələrlə birlikdə 230 min nəfərdən çox olmuşdur ki, bu da ümumi turist axınlarının 10,9% təşkil etmişdir.

## NƏTİCƏLƏR

- Tədqiqat regionunda innovasiya modellərinin tətbiqi turizm destinasiyalarının cəlbediciliyinin artırılmasına, daha yaxşı təcrübələrin tətbiqinə və iqtisadi inkişafda əlavə dəyər yaradılmasına imkan verir. Həmçinin, turizm potensialından səmərəli istifadə etməklə infrastrukturun bərpası, yeni istehsal və xidmət sahələrinin yaranması hesabına əhalinin məşğulluğunun təmin olunması, əlavə gəlir mənbələri əldə etməsi və icmaların turizmdə iştirakını təmin edəcəkdir.
- İnkişafdan geri qalmış və ya "boz" zonaların bərpası yeni innovativ və iqtisadi həll modellərinin tətbiqini zəruri edir. Bu da turizmdə alternativlərin axtarılmasında, innovasiyaların tətbiqi və iqtisadiyyatın digər sahələri ilə birgə inkişafın təmin edilməsində turizm sektorunun tamamlayıcı rolunu nəzərə almaqla tədqiqat regionunda investisiya mühitinin yaxşılaşdırlması, həmçinin sahibkarların stimullaşdırılması ilə icmaların və geri qayıdacaq əhalinin turizm sektoruna cəlb edilməsi iqtisadi tarazlığın bərpasına və məşğulluğun artırılmasına təkan vərəcəkdir.
- Azərbaycanda turizm sektorunun dövlətin prioritet istiqamətlərindən biri olaraq stimullaşdırılması, müxtəlif beynəlxalq tədbirləri keçirməklə ölkənin cəlbedici turizm məkanına çevrilməsi, müvafiq hüquqi bazanın və əlverişli bazar imkanlarının yaradılması onun inkişafını şərtləndirmişdir. Belə ki, hədəf ölkələrə istiqamətlənən turizm fəaliyyətində əlçatanlığın artırılması, Bakı şəhəri ilə yanaşı regionlarda turizm infrastrukturunun genişlənməsi, postpandemiya dövründə gəlmə turizmin 2 mln-a yaxınlaşması, gecələmə müddətinin artaraq 3-5 günə çatmaqla, istirahət sağlamlıq və mədəni motivli

gəlmə turistlərin 37,6% təşkil etməsi ÜDM-də 2,4% əlavə dəyər yaratmışdır.

- İşğaldan azad olunmuş ərazilərdə turizmin inkişafında boz zonalar və ən yaxşı təcrübələrin tətbiqi əsasında turizm sektorunun planlaşdırılmasının səmərəliliyi həm turizm destinasiyaları, həm də turizm klasterlərinin formalaşmasında əhəmiyyətli tətbiqlərdən sayılır. Turizmdə ən yaxşı təcrübələrin tətbiqində isə ərazinin cəlbedici amillərini nəzərə almaqla ixtisaslaşdırılmış turizm destinasiyalarının formalaşdırılması ilə mümkündür.

- Regionda turizmin inkişafında cəlbedici amillərin nəzərə alınması ilə çox kriteriyalı təhlil əsasında yeni yaradılacaq TRZ əsas cəlbedici komponentləri nəzərə almaqla, onların müvafiq ixtisaslaşma sahələri üzrə ekoloji, eko-mədəni, tarixi-mədəni, etno-mədəni, sağlamlıq və eko-sağlamlıq, eko-aqro, tədbir, açıq hava turizm klasterlərinin təşkili əsaslandırılır.

- İşğaldan azad olunmuş ərazilərdə turizmin inkişafının maraqlı tərəflərin (STAKEHOLDERS), PESTLE, SWOT analizi aparılaraq bu sahənin inkişaf istiqamətləri müəyyənləşdirilmişdir. Belə ki, regionda turizmin inkişafının digər təsərrüfat subyektləri ilə birgə planlaşdırılması, məskunlaşmada və yaşayış məntəqələrinin layihələndirilməsində turizm-rekreasiya potensialının nəzərə alınması sahibkarlıq subyektlərinin və icmaların əlavə dəyər yaratmasına imkan verəcəkdir.

- İşğaldan azad edilmiş ərazilərdə sağlamlıq və eko-sağlamlıq Kəlbəcər rayonun İstisu, Zülfüqarlı, Laçın rayonunda Minkənd, mədəni, eko-mədəni, tədbir və kreativ turizm klasteri kimi Şuşa şəhəri, Tuğ və Hadrutda şərab festivalı, mədəni, tarixi-mədəni, eko-mədəni turizm destinasiyası Xocavənd rayonunda Hadrut, Tuğ, Azıx, Tağlar, Ağdam rayonunda Şahbulaq qalası və Qərvənd kəndində olan arxeoloji irs nümunələri, eko-aqro turizm Kəlbəcər, Laçın rayonlarının yaylaqları, Tuğ kəndində üzüm bağları və şərab istehsalı (Xindoqni üzüm sortu) üzrə ixtisaslaşdırılmış turizm destinasiyalarının təşkilinin iqtisadi effektivliyi müəyyənləşdirilmişdir.

## TƏKLİFLƏR

- İşğaldan azad olunmuş ərazilər mövcud potensialın istifadəsində ətraf mühit qorunması və yarana biləcək ekoloji təhdidlərin qarşısının alınması;
- İşğaldan azad olunmuş ərazilərdə turizm sənayesinin inkişafının digər təsərrüfat sahələri ilə qarşılıqlı əlaqədə inkişafının təmin edilməsi;
- Regionda turizmin inkişafında beynəlxalq təcrübəni nəzərə alaraq daha yaxşı təcrübələrin tətbiqində yerli amillərin nəzərə alınması;
- Turizm sənayesinin inkişafında icmaların iştirakının təmin olunması və geri qayıdan əhalinin məşğulluğunda peşə yönümlü işlərin aparılması;
- Turizm sahəsində fəaliyyət göstərən sahibkarlıq subyektlərinə əlavə imkanların yaradılması, onların layihələrinin dəstəklənməsi;
- Ölkənin digər regionlarında fərqli olaraq turizmdə innovasiyaların və müasir texnologiyaların tətbiqinə önəm verilməsi;
- Təklif olunacaq turizm marşrutlarının təşkilində təhlükəsizlik qaydalarına əməl olunması və planlaşdırılmış turist səyahətlərinin təşkili.

## DİSSERTASİYA MÖVZUSUNA DAİR DƏRC OLUNMUŞ ELMİ ƏSƏRLƏR


1. Muradov İ.İ. Comprehensive analysis of the opportunities of ecotourism in the liberated regions. Economиca and region. №3(86), Ukrayna-2022, s.65-72.
2. Muradov İ.İ. Engineering smart cities: From smart city to smart region - European and Azerbaijan experience. IV. International Turkic World Congress on Science and Engineering. Niğde-2022.
3. Muradov İ.İ. Directions for organizing clusters by types of tourism in regions freed from occupation // Journal of Economic Growth and Public Welfare, - 2023. №2, - s.69-79.
4. Muradov İ.İ. Analysis of methodological approaches in the economic assessment of the organization of tourism in the regions.

Turizm Çalışmaları Dergisi. №5(1), Ankara-2023, s.41-48.

5. Muradov, İ.İ. Azərbaycan Respublikasının makroiqtisadi inkişafında turizmin rolunun təhlili // - Bakı: Turizm və qonaqpərvərlik jurnalı, - 2023. №2(12). - s.21-32.

6. Muradov İ.İ, Dargahov, V.S, Talibov S.A.,. Prospects of use of balneological-climatic resources of liberated areas in health tourism // Journal of Geology, Geography and Geoecology, 32(4), p.704-713

7. Muradov, İ.İ. Azərbaycanda turizm sənayesinin mikro və makroiqtisadi nəticələrinin təhlili // - Bakı: Tikintinin iqtisadiyyatı və menecment jurnalı, - 2023. №2, - s.155-165.

8. Muradov İ.İ. The current state of development of tourism in a market economy. Science and innovation of modern world, London-2023, s.546-551.

9. Muradov I.I. Evaluation of Tourism Potential in the Liberated Regions. European Scientific Congress, Madrid-2023, s.540-543.

10. Muradov İ.İ. Perspectives in the Formation of Eco-Cultural Destinations in Territories Liberated from Occupation (in the Example of Hadrut, Tugh, Azikh Villages and Surrounding Areas). V İqtisadiyyat və İdarəetmə sahəsində tədqiqatçıların beynəlxalq elmi konfransı, Bakı-2023, s.1971-1978.



Dissertasiyanın müdafiəsi 14 mart 2025-ci il tarixində saat $11.^{00}$-da AR Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.10 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: Bakı şəh., H.Cavid pr.,115. AZ1143

Dissertasiya işi ilə AR ETN İqtisadiyyat İnstitutunun kitabxanasında tanış olmaq olar.

Dissertasiya və avtoreferatın elektron versiyaları AR Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat "30" yanvar 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb:27.01.2025

Kağızın formatı: A5

Həcm: 41.494

Tiraj: 100